# İdmana qayğı gəncliyimizə, gələcəyimizə qayğıdır

***"Kütləvi idman işinin inkişafına rəhbərlik böyük siyasi əhəmiyyətə malik işdir, çünki xalqın sağlamlığına bizim göstərdiyimiz dövlət qayğısı həmişə böyük töhfə vermişdir və indi də verir".***
***Heydər Əliyev.***

***Təməli ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş gənclərlə iş və idmanın inkişafı siyasəti bu gün möhtərəm Prezidentimiz cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Respublikanın bütün regionlarında tikilən və istifadəyə verilən yeni-yeni idman qurğuları, olimpiya idman kompleksləri, stadionlar, idman zalları Azərbaycanda çox güclü idmançıların yetişməsində müstəsna rol oynayır.***

Bu gün artıq dünya idman federasiyaları öz yarışlarını, çempionatlarını və birinciliklərini Azərbaycanda keçirməyə üstünlük verirlər. Çünki Azərbaycanda idmana dövlət qayğısı vardır. Bütün bu işlərin nəticəsidir ki, bu ilin may ayının 12-dən 22-dək də Bakı şəhərində IV İslam Həmrəyliyi Oyunları keçiriləcəkdir. Dünyanın 57 ölkəsini təmsil edən 3 mindən çox idmançı 20 müxtəlif idman növü üzrə mübarizə aparacaqdır. Bu, ölkəmizin yenə də Şərqdə, dünyada bir idman məkanı olaraq bu cür tədbirləri keçirməyə qadir olduğunun göstəricisidir. I Avropa Oyunlarını yüksək səviyyədə keçirən dövlətimiz bu oyunları da müvəffəqiyyətlə başa vuracaqdır. «Bakı 2017» IV İslam Həmrəylik Oyunları ilə əlaqədar respublika üzrə seçilmiş 15 şəhər və rayonlar arasında Qəbələdə də "Xəzərdən başlayan Su səyahəti" adlı su festivalı təşkil olunmuşdur.

Qəbələ Rayon Gənclər və İdman İdarəsi tərəfindən 2017-ci ilin I rübü ərzində keçirilən 19 tədbirdən 9-u gənclərlə iş sahəsini, 10-u isə kütləvi bədən tərbiyəsi və idman sahəsini əhatə etmişdir ki, bura da 1598 nəfər gənc və 800-dən artıq idmançı cəlb olunmuşdur.

"Bədən tərbiyəsi və idman haqqında» Azərbaycan Respublikasının Qanunu"nun işimizdə tətbiqi bizim məsuliyyətimizi artıraraq idmanın daha keyfiyyətlə inkişafına stimul verir. Bu qanundan irəli gələn vəzifələrin yerinə yetirilməsi nəticəsində Qəbələ idmanı ötən illərlə müqayisədə daha böyük addımlarla irəliləyir.

Rayonda idmanın maddi-texniki bazasının möhkəmləndirilməsi, eləcə də idmanın kütləviliyinin təşkili sahəsində çox işlər görülmüşdür. "Qəbələ" Futbol Klubunun şəhərimizdəki stadionu yanında hər cür şəraiti olan yeni bazası yaradılmışdır. Hazırda klub ev oyunlarını 4 min tamaşaçı yeri olan stadionda keçirir. Tikiləcək əsas stadion ilə yanaşı, kompleksdə artıq 12 meydança da fəaliyyət göstərməkdədir. "Qəbələ" futbol komandası göstərilən qayğıya qələbələrlə cavab verir. Belə ki, komandamız U-16 liqası 2016/17 mövsümünün çempionu olub.

Onu qeyd etməliyəm ki, hazırda əsas diqqət uşaq futbolunun inkişaf etdirilməsinə yönəldilib. Bu məqsədlə "Qəbələ" Futbol Klubunun nəzdində 6 yaş qrupunda Uşaq Futbol Akademiyası fəaliyyət göstərir ki, burada da respublikamızın müxtəlif regionlarından cəlb olunmuş 250-dək yeniyetmə və gənc peşəkar futbolla məşğul olur. Futbol Akademiyasının inzibati binasının tikintisinə başlanmış və tikinti işləri davam etdirilir.

Rayonun idman həyatında mühüm yer tutan Olimpiya İdman Kompleksində yeniyetmə və gənclər idmanın sərbəst-güləş, boks, üzgüçülük, futbol, stolüstü tennis, voleybol və s. növləri ilə müntəzəm olaraq məşğul olurlar. Bundan əlavə Qəbələ Cıdır Kompleksinin, "Golf Resort" idman və istirahət Mərkəzinin, "Raftinq" Mərkəzinin də tikilib istifadəyə verilməsi rayonda idmana olan marağı daha da artıracaqdır.

Gənclər və idman idarəsi olaraq bu il qarşımıza qoyduğumuz əsas məqsəd respublika tədbirlərində daha çox iştirak etmək və rayona nailiyyətlə qayıtmaq, həmçinin Qəbələdə idmanın kütləviliyinə, gənclərin zərərli vərdişlərdən yayındırılmasına, onların asudə vaxtlarının səmərəli təşkilinə nail olmaqdır.

Sevindirici haldır ki, artıq idmançılarımızın şahmat, futbol, taekvondo, armrestlinq, sərbəst-güləş, cüdo döyüş növləri üzrə keçirilən yarışlardan xoş sədaları eşidirik.

**✍ Fəxri SOLTANOV,**
**rayon gənclər və idman idarəsinin rəisi.**

# Tarìxìmìzì öyrənìrìk

Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin maliyyə dəstəyi ilə Qəbələ Regional Gənclərin Resurs Mərkəzi İctimai Birliyi tərəfindən "Region gəncləri arasında Azərbaycan tarixi mövzusunda olimpiadalar və intellektual oyunlar" layihəsi çərçivəsində tədbir keçirilmişdir.



İctimai birliyinin sədr müavini Anar Məhərrəmov layihə haqqında iştirakçılara geniş məlumat vermiş, əsas məqsədin gənclər arasında tariximizin, eləcə də tarixi abidələrimizin öyrənilməsi, qorunması və mühafizə edilməsi istiqamətində təbliğat işlərinin genişləndirilməsi olduğunu diqqətə çatdırmışdır.

Rayon turizm və otelçilik üzrə peşə tədris mərkəzinin müəllimi İlham Əfəndiyev çıxış edərək gənclər arasında belə layihələrin həyata keçirilməsinin, gənclərdə vətənpərvərlik hisslərinin artırılması istiqamətində müsbət təsirinin olduğunu qeyd etmişdir.

Layihənin eksperti Ümüdvar Həsənov ümummilli liderimiz Heydər Əliyevin işıqlı ideyalarının Prezidentimiz cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi sayəsində Azərbaycanın dinamik inkişafına diqqət çəkmiş, milli mədəniyyətimizin dünyada təbliğinə göstərilən dövlət qayğısı, gənclər arasında vətənpərvərlik və vətəndaşlıq hisslərinin artırılması, onlarda milli şüurun formalaşdırılması istiqamətində həyata keçirilən mütərəqqi layihələr barədə geniş məlumat vermişdir.

Daha sonra Azərbaycan tarixi mövzusunda intellektual oyunlar təşkil edilmiş, qaliblər qiymətli hədiyyələr və diplomlarla təltif olunmuşlar.

**Qəbələ Regional Gənclərin Resurs Mərkəzi İctimai Birliyinin mətbuat xidməti.**

# «Xəmsə» milli intellektual oyunu

***Gənclər və İdman Nazirliyinin təşkilatçılığı ilə aprelin 22-də Qəbələ Turizm və Otelçilik üzrə Peşə Tədris Mərkəzində gənclər arasında "Xəmsə" Milli İntellektual Oyunu IX Azərbaycan Çempionatının zona seçim mərhələsi keçirilmişdir. Tədbirdə Gənclər və İdman Nazirliyinin sektor müdiri Kənan Kərimov iştirak etmişdir.***

Tədbirin açılış mərasimində rayon gənclər və idman idarəsinin rəisi Fəxri Soltanov çıxış edərək Prezident cənab İlham Əliyevin gənc nəslə göstərdiyi xüsusi diqqətdən, onlara hər bir sahədə olan dövlət qayğısından və respublikada dövlət gənclər siyasətinin uğurlu inkişafından danışmış, tədbirin məqsəd və vəzifələri haqqında məlumat vermişdir.

"Xəmsə" Milli İntellektual Oyununun keçirilməsində əsas məqsədin gənclərin intellektual səviyyəsini, dünyagörüşünü, zehni inkişafını stimullaşdırmaq, onların bilik və elm səviyyəsini artırmaq, Azərbaycanın zəngin milli mədəniyyətinin və tarixinin təbliği, eləcə də gənclərin asudə vaxtlarının səmərəli təşkili istiqamətində yeni üsullar tətbiq etməkdən ibarət olduğu bildirilmişdir.

Zona mərhələsində yaşı 18-dən 29-dək olan Oğuz, Şəki, Qax, Zaqatala, Balakən və Qəbələ rayonlarının komandaları öz bilik və bacarıqlarını, intellektual səviyyələrini sınamışlar. Yarışın yekununda Balakən I komandası I yerə, Qəbələ komandası II yerə, Balakən II komandası III yerə çıxmışdır. Hər üç komanda final mərhələsinə vəsiqə qazanmışdır.

**✍ Məhəmmədəli SƏFƏRÇİNOV,**
**gənclər və idman idarəsinin baş məsləhətçisi.**

# "Şahin" hərbi-idman oyunu üzrə zona birinciliyi

Gənclər və İdman Nazirliyinin təşkilatçılığı ilə 25 aprel 2017-ci il tarixdə Fövqəladə Hallar Nazirliyinin «N» saylı hərbi hissəsində gənclərin hərbi vətənpərvərlik tərbiyəsinin gücləndirilməsində, onların fiziki hazırlıqlarının artırılmasında, ordu sıralarına hazırlanmasında mühüm rol oynayan "Şahin" hərbi-idman oyunu üzrə zona birinciliyi keçirilmişdir. Zona yarışında Şəki, Zaqatala, Qax, Balakən, Oğuz və Kürdəmir rayonlarının komandaları öz güclərini sınamışlar. Tədbirdə Gənclər və İdman Nazirliyinin sektor müdiri Əli Məmmədov, rayon icra hakimiyyətinin məsləhətçisi Tural Bağırov, Fövqəladə Hallar Nazirliyinin «N» saylı hərbi hissəsinin qərargah rəisi Rəşad Hacıyev iştirak etmişlər.

Rayon gənclər və idman idarəsinin rəisi Fəxri Soltanov tədbiri açıq elan etmiş, dövlət himni səsləndirilmişdir. Daha sonra Gənclər və İdman Nazirliyinin rəsmisi Əli Məmmədov çıxış edərək gənc şahinləri salamlamış və "Şahin" hərbi-idman oyununun keçirilməsində məqsədin məktəblilər arasında aparılan hərbi vətənpərvərlik tərbiyəsi işini daha da gücləndirmək, orta məktəb şagirdlərini hərbi-idman oyunlarına geniş cəlb etməklə onların ordu sıralarında xidmətə hazırlığını inkişaf etdirməkdən ibarət olduğunu bildirmiş və komandalara bu zona mərhələsində uğurlar arzulamışdır.



Tam orta məktəblərin VIII-X sinif şagirdlərindən ibarət 6 komandanın iştirak etdiyi yarış gərgin idman mübarizəsi şəraitində keçmişdir. Yarışın əsasnaməsinə uyğun olaraq sıra hazırlığı mərhələsi keçirilmiş, daha sonra komandalar estafet mərhələsində mübarizələrini davam etdirmişlər.

Yarışın yekun nəticəsinə əsasən Qax rayonunun komandası I yeri, Kürdəmir rayonunun komandası II yeri və Balakən rayonunun komandası III yeri tutmuşdur. Qalib komandalara Gənclər və İdman Nazirliyinin diplomları təqdim edilmişdir. I və II yeri tutmuş komandalar Bakı şəhərində keçiriləcək final yarışına vəsiqə qazanmışlar.

**✍ Elçin OSMANOV,**
**gənclər və idman idarəsinin aparıcı məsləhətçisi.**
**📷 Səhrab UMUYEV.**